iki sahil

# Faşizm üzərində qələbədə neftçilərimizin xidmətləri danılmazdır

## Fədakar neftçilərimiz arasında Abdul Ağa Cavadovun da adı var



Faşizm üzərində Qələbənin 74-cü ildönümünü qeyd edirik.

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı həm cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərib. 1941-1945-ci illərdə 700 mindən çox azərbaycanlı oğlan və qızlar cəbhəyə yollanıb. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək mübariz yol keçib. 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeni ilə təltif olunub. 170 min Azərbaycan əsgər və zabiti keçmiş İttifaqın müxtəlif orden və medalları ilə təltif edilib. Qısa müddətdə Bakı döyüşən ordunun ən mühüm cəbhəxanasına çevrilib. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin ediblər. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox, 23 milyon ton neft istehsal olunub ki, bu da SSRİ-də istehsal olunan neftin 71,4 faizini təşkil edirdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 80 milyon ton neft, 23 milyon ton benzin və başqa neft məhsulları veriblər. Qətiyyətlə demək olar ki, Bakı nefti faşizm üzərində qələbə qazanılmasında əsas amillərdən biri oldu.

Bu gün İkinci Dünya müharibəsinin ağırlığını çiyinlərində daşımış qəhrəman və mərd insanları böyük hörmət və minnətdarlıq hissi ilə yad edirik. Haqqında söz açdığımız Abdul Ağa Cavadov da II Dünya müharibəsinin iştirakçısı olub. Müharibənin son günlərinə kimi döyüşlərdə qəhrəmanlıqla iştirak edib.

Abdul Ağa Cavadovun həyat yolunu vərəqlədikcə böyük fədakarlığın şahidi oluruq. 1920-ci ildə Bakının Zirə qəsəbəsində dünyaya göz açan Abdul Ağa Cavadov ailədə 8 uşaqdan biri olub. II Dünya müharibəsindən öncə Zabitlər məktəbini bitirib. Müharibə başlayanda çağırışda olmadığını görən Abdul Ağa Hərbi Komissarlığa müraciət edərək, könüllü olaraq cəbhəyə getmək istədiyini bildirib. Lakin ona bir az gözləməyi, atasına kömək etməyi məsləhət biliblər. Abdul Ağa Cavadovun atası neftçi olub. 1942-ci ildə cəbhəyə çağırılan Abdul Ağa Krıma göndərilib. O, 825-ci Dağ Diviziyası tərkibində vuruşur. Bir neçə döyüşdən sonra yaralanır. O hadisədən sonra onların dəstəsini Novorosiyskdən Kerçə aparırlar. Gənc Abdul Ağa orda 157-ci biriqadada xidmət edir. Sonra həmin briqadanı 4-cü Dəniz Polku ilə birləşdirib 31-ci Atıcı Stalin Diviziyası yaradırlar. Abdul Ağanın xidmət etdiyi diviziya Stalino şəhərini ələ keçirdiyinə görə ora Stalinin adı verilir. Döyüşdə yaralanan Abdul Ağaya əlillik dərəcəsi verilsə də, o, yenidən cəbhəyə qayıdır və Zaqafqaziya ordusunun tərkibində döyüşlərdə iştirak edir. Onların diviziyası müharibənin sonuna kimi döyüşür. Abdul Ağa müxtəlif şəhərlərin alınmasında böyük qəhrəmanlıq göstərir, dekabrın 16-da xidmət etdiyi diviziyanın əsgəri kimi Berlin şəhərinin yaxınlığına qədər gedir. 1945-ci ilin may ayının 2-də onlar Berlin şəhərinə daxil olurlar.

Müharibədən sonra 1947-ci ildə baş leytenant kimi Bakıya qayıdan Abdul Ağa qəbul imtahanına hazırlaşıb. O, Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsinə daxil olur və 1954-cü ildə buranı fərqlənmə ilə bitirib dağ-mədən mühəndis-geoloqu ixtisasına yiyələnib. "Balaxanıneft" NQÇİ-də öz ixtisası üzrə işləyib. 1956-cı ildən 1964-cü ilə qədər Elmi-Tədqiqat İnstitutunda geoloq vəzifəsində çalışıb.

Abdul Ağa Cavadovun əmək fəaliyyəti zənginliyi ilə diqqət çəkir. Belə ki, 1962-ci ildə "Sabunçu layında Balaxanı-Sabunçu-Ramana yataqlarının geologiyası və neftqazlılığı, onların işlənib hazırlanmasının səmərəli yolları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 1954-1974-cü illərdə "Qaradağneft" NQÇİ-nin baş geoloqu vəzifəsində çalışıb. Ataşgah, Umbakı, Mezozoy çöküntüləri sahələrində meosen - mezozoy qalxmalarının stratiqrafik tiplərinə aid yataqlarda kəşfiyyat quyularının qazılmasını layihələndirib. Lökbatan qatının meosen-mezozoy layında qaz-kondensat yataqlarının kəşfində və istismarında iştirakçı olub. 1970-ci ildə "Abşeronun cənub-qərbindəki məhsuldar qatların geologiyası və neftqazlılığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Abdul Ağa Azərbaycanda yeganə neftçi-geoloqdur ki, doktorluq dissertasiyasını istehsalatda çalışaraq müdafiə edib. 1974-1978-ci illərdə Elmi-Tədqiqat Neft İnstitutunda "Layın fizikası" laboratoriyasının müdiri vəzifəsində çalışıb. O, 1978-ci ildən Azərbaycan Neft-Kimya İnstitutunun Neft-qaz yataqlarının geologiyası, kəşfiyyatı və axtarışı kafedrasının professoru olub. Sənaye istehlakının təşkili fakültəsinin dekanı kimi də fəaliyyət göstərib. 1981-1986-cı illərdə Neft-qaz yataqlarının geologiyası, kəşfiyyatı və axtarışı kafedrasının müdiri vəzifəsində çalışıb. O, "Neft Daşları", "Günəşli" və başqa yataqların işlənib hazırlanmasında yaxından iştirak edib.



Abdul Ağa Cavadovun elmi fəaliyyəti də təqdirəlayiqdir. O, 120 elmi əsərin müəllifi olub, 12 elmlər namizədi hazırlayıb.

Hər bir kəsin çalışdığı sahədən asılı olaraq fəaliyyətinin daha da genişləndirilməsində stimulverici amillərdən biri təbii ki, əməyinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə özlüyündə məsuliyyət hissini artırır və daha səylə çalışmağa əsas verir. Abdul Ağa Cavadov Böyük Vətən müharibəsi cəbhəsində göstərdiyi döyüş şücaətinə görə I, II dərəcəli "Vətən Müharibəsi", "Qırmızı Ulduz" ordenləri, eləcə də bir çox medallarla təltif olunub. 2014-cü ildə Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının katibi Nikolay Petruşev Bakıya gələrək Abdul Ağa Cavadovu şəxsən "Rusiya Federasiyasının Təhlükəsizlik Şurası" ordeni ilə mükafatlandırıb. O, yeganə neftçidir ki, Böyük Vətən müharibəsi başlandığı gündən sonadək döyüşüb və Berlində Reyxstaqın divarının üzərində "Mən azərbaycanlıyam və burada olmuşam" sözlərini yazıb.

Abdul Ağa Cavadovun neft sənayesinin inkişafındakı xidmətləri də yüksək dəyərləndirilib. Ümumilikdə 18-ə qədər orden və medallarla təltif olunan Abdul Ağa Cavadovun ömür yolu gənclərimizə örnəkdir.

Neft sənayesini ölkə iqtisadiyyatının onurğa sütunu kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının bu gün dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevirib. Neft strategiyasının uğurlu icrasında öz payı, öz töhfəsi olan Abdul Ağa Cavadov kimi neftçilərimizin xatirəsi daim əziz tutulur, gənc mütəxəssislərə nümunə göstərilir. Azərbaycanın, həmçinin neft sənayesinin gələcəyi parlaqdır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***